Aqrar Xidmətlər Agentliyi

# TAXIL ƏKİNLƏRİNDƏ **ALAQ OTLARINA** QARŞI MÜBARİZƏ



Alaqlara qarşı mübarizədə **əsasən aqrotexniki tədbirlərə üstünlük verilməli** və ən **son halda kimyəvi mübarizə üsulundan** istifadə edilməlidir. Alaqlarla mübarizənin səmərəli aparılması üçün onların bioloji xüsusiyyətləri, həyat tərzi və yayılma yollarına uyğun mübarizə tədbiri seçilməlidir.

**Buğda və arpa əkinlərində** alaq otlarına qarşı mübarizə **2** üsulla aparılır:

**Profilaktiki və ya qarşılayıcı mübarizə**

**Məhvedici mübarizə**

## Profilaktiki və ya qarşılayıcı mübarizə

Mədəni bitkilərin böyüməsi və inkişafını təmin edən əlverişli şəraitin yaradılması və alaq otlarının yayılmasının qarşısının alınması tədbirləridir.

Bunlar aşağıdakılardır

- *növbəli əkin sistemi tətbiq olunur*
- *əkindən qabaq torpaq arat olunur*

## Məhvedici mübarizə

### Aqrotexniki mübarizə tədbirləri

- *Yüksək kondisiyalı toxumlardan istifadə olunur*
- *Dərin şum, kultivasiya, malalama və üzləmə tədbirləri vaxtında aparılır*
- *Taxıl əkini sahəsinin ətrafları alaq otlarından təmizlənir*



### Kimyəvi mübarizə tədbirləri

**Bitkilərin çıxışından öncə**

Turpəng, yabanı vələmir, qanqal, yabanı turp və.s kimi alaqlara qarşı **pendi-metalin (2,3-6,0 l\ha)**və ya **promethrin (1.5-3 l/ha)** tərkibli təsiredici maddəli herbisidlərdən istifadə olunmalı



**Bitkilərin inkişaf dövründə**

Eyni alaqlara qarşı **dikamba + xlorsulfuron (0,14-0,2 l/ha), triasulfuron (180 qr/ha),** birillik taxıl fəsiləsinə aid olan alaq otlarına qarşı isə **fenoxaprop-p-ethyl (04,-1,0 l\ha)** təsiredici maddəli herbisidlər tətbiq edilməli

Yabanı vələmirə və tülküquyruğuna qarşı təsiredici maddəsi **pinoxaden (1,0 l/ha)** olan preparatdan istifadə olunmalıdır




Alaq otlarına qarşı vaxtında və səmərəli mübarizə tədbirlərinin aparılması yüksək və keyfiyyətli məhsul istehsalına zəmin yaradır. Bununla əlaqədar fermerlər **Aqrar Xidmətlər Agentliyinin** yerli qurumlarına **(Bitki Mühafizə Mərkəzləri)** müvafiq məsləhət və tövsiyələr almaq üçün müraciət edə bilər.

Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A
Çağrı Mərkəzi 1652
info@axa.gov.az
www.axa.gov.az

Aqrar Xidmətlər Agentliyi